Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı

“ZƏFƏRİMİZİN SƏDALARI” musiqi əsərləri müsabiqəsinin

ƏSASNAMƏSİ

1. Ümumi müddəalar

1.1. “Zəfərimizin sədaları” musiqi əsərləri müsabiqəsi (bundan sonra – Müsabiqə) Azərbaycan xalqının Zəfər salnaməsini, milli-mənəvi dəyərlərini, vətənpərvərlik ruhunu, qəhrəmanlıq tarixini və azadlıq ideyalarını musiqi sənətinin dili ilə ifadə edən yeni bəstəkar əsərlərinin yaradılmasını və təbliğini təşviq etmək məqsədilə təşkil olunur.

1.2. Müsabiqə Azərbaycan Respublikasının qüvvədə olan müvafiq qanunvericiliyinə, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnaməyə əsaslanaraq bu Əsasnaməyə uyğun olaraq keçirilir.

1.3. Müsabiqənin təşkilatçısı Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatıdır.

1.4. Müsabiqədə iştirak könüllülük, şəffaflıq, bərabərlilik, yaradıcılıq azadlığı və peşəkar qiymətləndirmə prinsipləri əsasında həyata keçirilir.

1.5. Müsabiqənin keçirilməsi üçün zəruri olan bütün təşkilatı məsələləri müsabiqənin Təşkilat komitəsi həyata keçirir. Təşkilat komitəsi 3 nəfər üzvdən ibarət olur.

2. Müsabiqənin məqsəd və vəzifələri

2.1. Müsabiqənin əsas məqsədi Zəfər mövzusunun Naxçıvan bəstəkarlıq sənətində bədii-estetik təcəssümünü təşviq etmək, milli musiqi mədəniyyətinin inkişafına töhfə vermək və yeni musiqi əsərlərinin yaradılmasına dəstək göstərməkdir.

2.2. Müsabiqənin əsas vəzifələri aşağıdakılardır:

2.2.1. Azərbaycanın tarixi Zəfərini, qəhrəmanlıq salnaməsini, şəhidlərin xatirəsini, qazilərin şücaətini və xalqın birliyini musiqi vasitəsilə tərənnüm edən əsərlərin yaradılmasını stimullaşdırmaq;

2.2.2. istedadlı bəstəkarların yaradıcılıq potensialını üzə çıxarmaq və onların peşəkar inkişafına dəstək vermək;

2.2.3. yeni əsərlərin ifasını və geniş ictimaiyyətə təqdim olunmasını təşviq etmək;

2.2.4. gənc bəstəkarlarla təcrübəli sənətkarlar arasında yaradıcılıq əlaqələrini gücləndirmək.

3. Müsabiqənin mövzusu və nominasiyaları

3.1. Müsabiqəyə təqdim olunan əsərlər “Zəfərimizin sədaları” mövzusunun ideya və məzmun istiqamətlərinə uyğun olmalı, Vətənə məhəbbət və milli birlik; Azərbaycanın tarixi Zəfəri və qəhrəmanlıq salnaməsi; şəhidlərin əziz xatirəsi və qazilərin şücaəti; milli-mənəvi dəyərlər və Azərbaycan dövlətçiliyi motivlərini özündə əks etdirməlidir.

3.2. Müsabiqə “**Vokal və instrumental əsərlər** – mahnı, romans və instrumental əsərlər - pyeslər” nominasiyası üzrə keçirilir. Əsərin müddəti 3 dəqiqədən az olmamalıdır.

4. Müsabiqədə iştirak üçün tələblər və müraciət qaydası

4.1. Müsabiqədə iştirak üçün tələblər:

4.1.1. Müsabiqədə Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında yaşayış icazəsi verilmiş xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

4.1.2. Müsabiqədə peşəkar bəstəkarlar, musiqi təhsilli şəxslər, gənc bəstəkarlar və müvafiq yaradıcılıq təcrübəsi olan digər bəstəkarlar iştirak edə bilərlər.

4.1.3. Müsabiqəyə fərdi qaydada və ya həmmüəlliflik əsasında müraciət etmək mümkündür.

4.1.4. Hər bir bəstəkar müsabiqəyə yalnız 1 əsər təqdim edə bilər.

4.1.5. Müsabiqədə əvvəllər digər müsabiqələrdə iştirak etməmiş, səslənməmiş, nəşr edilməmiş, eləcə də xüsusi olaraq bu müsabiqə üçün bəstələnmiş yeni əsərlər təqdim olunmalıdır.

4.1.6. Müsabiqədə iştirak etmək üçün bu Əsasnamənin tələblərinə uyğun sənədlər və materiallar 15.01.2027-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə təqdim olunmalıdır.

4.1.7. Müsabiqəyə təqdim olunan əsərlər orijinal bədii məzmuna, müəllif mövqeyinə və mövzuya uyğun ideya istiqamətinə malik olmalıdır.

4.1.8. Təqdim olunan əsərlərin musiqi materialları not yazısı formasında hazırlanmalı, ifa üçün zəruri olan müvafiq tələbləri əhatə etməlidir.

4.1.9. Notla birlikdə əsərin audio yazısı təqdim edilməlidir.

4.1.10. Əsərin müddəti onun janrına və nominasiyasına uyğun olmalıdır.

4.1.11. Plagiat, müəllif hüquqlarının pozulması, saxta müəlliflik məlumatları və təqdim olunmuş materialların həqiqətə uyğun olmaması halı aşkar edildikdə müəllif (bəstəkar) müsabiqədən kənarlaşdırılır.

4.2. Müraciət üçün aşağıdakı materiallar tələb olunur:

4.2.1. əsərin klaviri və ya partiturası (not materialı zərfdə təqdim olunmalıdır. Üzərində müəllifin soyadı, adı, atasının adı qeyd olunmalıdır. Not yazısının üzərində müəllifin şəxsi məlumatları göstərilməməlidir);

4.2.2. audio yazı (flaşkart, cd, dvd və s. fayl daşıyıcıları vasitəsi ilə);

4.3. Müraciət müddəti başa çatdıqdan sonra daxil olan materiallar müsabiqəyə buraxılmır.

4.4. Natamam və ya texniki tələblərə uyğun olmayan müraciətlər barədə iştirakçıya məlumat verilməlidir. Çatışmazlıqların aradan qaldırılması üçün müddət müəyyən etmək təşkilatçının səlahiyyətinə aiddir.

5. Müsabiqənin keçirilmə mərhələləri

5.1. Müsabiqə aşağıdakı mərhələlər üzrə təşkil olunur:

5.1.1. Birinci mərhələ – elan və müraciətlərin qəbulu.

5.1.2. İkinci mərhələ – təqdim olunan sənədlərin tamlığı, əsərlərin müvafiq tələblərə və mövzuya uyğunluğu yoxlanılır.

5.1.3. Üçüncü mərhələ – bədii qiymətləndirmə**.** İlkin seçimdən keçmiş əsərlər canlı ifa ilə təqdim olunur və münsiflər heyəti tərəfindən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilməsi aparılır.

5.1.4. Final mərhələsi – mükafatlandırma və təqdimat. Qaliblərin elan edilməsi, diplom və mükafatların təqdim olunması, seçilmiş əsərlərin konsert proqramında səsləndirilməsi həyata keçirilir.

6. Münsiflər heyəti

6.1. Əsərlərin qiymətləndirilməsi və qaliblərin seçilməsi müsabiqənin Münsiflər heyəti tərəfindən həyata keçirilir. Münsiflər heyətinin üzvləri musiqişünas, bəstəkar və digər müvafiq sahə üzrə mütəxəssislərdən olmaqla 5 nəfərlik tərkibdə formalaşdırılır və Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı ilə razılaşdırılmaqla Nazirliyin müvafiq əmri ilə təsdiq edilir.

6.2. Münsiflər heyətinin üzvləri əsərləri peşəkarlıq, obyektivlik, qərəzsizlik və şəffaflıq prinsipləri əsasında qiymətləndirirlər. Zərurət olduqda müəllifə əsərlə bağlı tövsiyələr verir.

6.3. Münsiflər heyətinin qərarları protokollaşdırılır. Qiymətləndirmə nəticələri təşkilatçının müəyyən etdiyi qaydada elan olunur.

6.4. Münsiflər heyətinin qərarı yekun hesab olunur. Texniki səhv və ya prosedur pozuntusu ilə bağlı müraciətlər təşkilatçının müəyyən etdiyi qaydada araşdırıla bilər.

6.5. Əsəri müsabiqədə iştirak edən müəllif münsiflər heyətinin üzvü ola bilməz.

7. Qiymətləndirmə meyarları

7.1. Müsabiqəyə təqdim olunan əsərlər aşağıdakı meyarlar üzrə 30 ballıq sistemlə qiymətləndirilir və yekun qiymət münsiflər heyətinin qiymətləndirdiyi ballarının cəminin orta balına əsasən çıxarılır.

№	Qiymətləndirmə meyarı	Maksimum bal
1	Əsərin janr tələblərinə uyğunluğu	10
2	Əsərin mövzuya uyğunluğu	10
3	Əsərin bədii ifadəsi və həcmi	10
	Cəmi:	30

Nümunə: $\frac{30+30+30+30+30}{5}$ *= 30 bal, yekun qiymət.*

7.2. Münsiflər heyəti tərəfindən qiymətləndirmə zamanı bərabər nəticələr yarandıqda təşkilatçının müəyyən etdiyi qaydada məsələyə baxıla bilər.

8. Mükafatlandırma

8.1. Müsabiqənin nəticələrinə əsasən nominasiyalar üzrə aşağıdakı mükafatların verilməsi nəzərdə tutulur:

- I yer – Diplom və mükafat;
- II yer – Diplom və mükafat;
- III yer – Diplom və mükafat;
- Həvəsləndirici Sertifikat

* Zərurət olduğu halda “Ən yaxşı mahnı sözü” üzrə təltifetmə aparıla bilər.

8.2. Qaliblərin əsərlərinin konsert proqramında ifası, radio və televiziya vasitəsilə təqdimatı, notlarının nəşri və ya digər yaradıcı layihələrə daxil edilməsi təşkilatçıların imkanları əsasında həyata keçirilə bilər.

8.3. Münsiflər heyəti müvafiq dərəcələndirmə yeri üzrə layiqli əsər olmadığı qənaətinə gələrsə, həmin dərəcələndirmə yeri üzrə mükafatın verilməməsi barədə qərar qəbul edə bilər.

9. Təşkilatçının hüquq və vəzifələri

9.1. Təşkilatçı:

9.1.1. müsabiqənin keçirilməsini təşkil edir və müsabiqə barədə məlumatları ictimaiyyətə çatdırır;

9.1.2. müraciətləri qəbul edir və ilkin yoxlamanı həyata keçirir;

9.1.3. qiymətləndirmə və mükafatlandırma prosesinin təşkilinə nəzarət edir;

9.1.4. iştirakçıların təqdim etdiyi şəxsi məlumatların qorunması üçün müvafiq tədbirlər görür;

9.1.5. Müsabiqənin vaxtı və ya keçirilmə formatı dəyişdirildikdə bu barədə iştirakçılara vaxtında məlumat verir.

10. İştirakçıların hüquq və vəzifələri

10.1. İştirakçılar:

10.1.1. müsabiqənin şərtləri və keçirilmə qaydaları barədə məlumat almaq;

10.1.2. müəlliflik hüquqlarının qorunmasını tələb etmək;

10.2. İştirakçılar:

10.2.1. bu Əsasnamənin tələblərinə riayət etməli;

10.2.2. təqdim etdikləri məlumatların düzgünlüyünü təmin etməli;

10.2.3. müəlliflik hüquqlarını və digər şəxslərin qanuni hüquqlarını pozmamalı;

10.2.4. müsabiqənin etik normalarına əməl etməli;

11. Yekun müddəalar

11.1. Müsabiqənin nəticələri təsdiq edildikdən sonra təşkilatçının rəsmi informasiya vasitələrində elan olunur.

11.2. Müsabiqənin nəticələri ilə bağlı müraciət və şikayətlər nəticələrin elan olduğu gündən etibarən 3 iş günü ərzində qəbul edilir, nəticəsi təşkilatçının qəbul etdiyi qərara uyğun olaraq baxılır.

11.3. Müsabiqənin keçirilmə vaxtı, yeri, iştirak üçün müraciət müddəti və digər təşkilati məsələlər təşkilatçı tərəfindən müəyyən edilir və rəsmi informasiya vasitələrində elan olunur.